# ALLAH QOYSA

Açılar, söylədik, altun səhər, Allah qoysa,
Döyəcəkdir qapını müjdələr, Allah qoysa!

Gəldi, şükr eylə, Zəfərlər günümüz, şad olduq,
Xəlqimə qismət olar çox zəfər, Allah qoysa!

Gözləri yolda idi gözləyənin qazimizi,
Olar öz yarı ilə bəxtəvər, Allah qoysa!

Ruhu göylərdə dolanmaqda şəhidin, ey dil,
Yazarıq ruhuna bir şah əsər, Allah qoysa!

Bizi illərlə vətəndən ki didərgin elədi,
Olacaq düşmənimiz dərbədər, Allah qoysa!

Pis nəzərlə bizə baxmış o xəbis oğlu xəbis,
Dəyəcəkdir özünə bədnəzər, Allah qoysa!

Bakıya əl eləyir eşq ilə Təbriz gözəlim,
Açılar gül-çiçəyi tazə-tər, Allah qoysa!

Yazmağa Zəngəzurum da mənə göz-qaş eləyir,
Yazarıq, həll eləyək müxtəsər, Allah qoysa!

Elimin başın uca eylədi, sərkərdəsi var,
Mötəbərdən də olar mötəbər, Allah qoysa!

Ələmi şəninə yazdıqca qəzəllər yazacaq,
Xəlqimiz olmayacaq bixəbər, Allah qoysa!

# PAYIZ GƏLİB

Bu dağlara, bu bağlara, görüb məni, payız gəlib,
Qızıldan örpəyin atıb ayağıma bu qız, gəlib.

O yalvarır, mənimlə qal, sevib məni, əzizlə get,
Açıbdı sinəsin çox az, sözüm məgər ucuz gəlib.

Bu qış deyil, payızdı, ləblərində var hərarəti,
O qış nə vaxt(ı) gəlsə də dodaqlarında buz gəlib.

Sevib-sevilmək istəyir, bir özgə varmı istəyi,
Gözəldi son baharımız, gələndə qayğısız gəlib!

Xəzəllərin pıcıltısı, deyir, bir azca səbr elə,
Ayaqlarından öpməyə enibdi yarımız, gəlib.

Dolandırımmı başına bu dilbərin ki, göz dəyər,
Özüm də bilmədən necə ovuclarımda duz gəlib!

Ələmi, bu gözəlliyi inanma hər yetən duya,
Kimin ki ruhu - yoxdu, yox, bu aləmə cılız gəlib!

*09.10.2022*



**Əli ƏLƏMİ**

Azad Azərbaycan.- 2022- ci il.- 17 noyabr.- S. 8.